

# Qarabağın bərpası mərhələli şəkildə aparılır

***Otuz ilə yaxın düşmən əsarəti altında qalan torpaqlarımızın işğaldan azad edilməsi ilə nəticələnən II Qarabağ müharibəsindən bir il ötür. Bu gün əminliklə deyə bilərik ki, Azərbaycan Prezidenti İlham Əliyev həm müharibə dövrünü, həm də ondan sonrakı bərpa-quruculuq mərhələsini ideal şəkildə idarə etdi. Əlbəttə, hələ qarşıda görüləcək çox iş var. Lakin indiyədək işğaldan azad edilən ərazilərdə görülən işlər bundan sonra həyata keçiriləcək layihələrin, bərpa-quruculuq prosesinin təməlidir. Bu, təkcə yerli auditoriyanın yox, həmçinin xarici media qurumlarının nümayəndələrinin, hərbi-siyasi ekspertlərin rəyidir:***

Azərbaycan müharibənin yaralarını sağaldır... Bu fikirləri bizimlə söhbətində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası "Dövlət idarəetməsi və menecment" kafedrasının dosenti İbrahimxəlil İbrahimov bildirdi. İbrahim müəllim dedi:

– Əlbəttə, hər zaman qeyd edildiyi kimi, burada əsas maneə minalardır. Təbii ki, bölgədə minatəmizləmə işləri də sürətlə davam etdirilir. Lakin ərazilər mina təhlükəsindən təmizlənmədikcə burada həyatın tam bərpası mümkün deyil. Məlum olduğu kimi, biz bu məsələ ilə bağlı dəfələrlə istər dövlət, istərsə də beynəlxalq təşkilatlar səviyyəsində Ermənistana müraciət etmişik ki, minalanmış ərazilərin xəritəsini versin.  Lakin düşmən digər mövzularda olduğu kimi, bu məsələdə də qeyri-insani davranış sərgiləyir, mina xəritələrinin verilməsindən boyun qaçırır.

Prezidentimiz dəfələrlə demişdir ki, bizim əsas rəqibimiz zamandır. Çünki bölgədə əldə olunan nəticələr onu deməyə əsas verir ki, Azərbaycan işlərin həm maddi, həm də fiziki cəhətdən çox böyük miqyasda olmasına baxmayaraq, bir il ərzində, sözün əsl mənasında, möcüzə yaratmağı bacardı.

Zənnimcə, işğaldan azad edilmiş ərazilərdə reallaşdırılan ən önəmli layihələrdən biri hava limanlarının tikintisi ilə bağlıdır. Belə ki, işğaldan azad olunmuş torpaqlarda 3 beynəlxalq hava limanı fəaliyyət göstərəcək ki, bunlardan biri artıq istifadəyə açılıb. Füzuli Beynəlxalq Hava Limanı bu ilin sentyabr ayından istismara verilib. Bu hava limanları ölkə iqtisadiyyatında özünəməxsus rol oynayacaq. Əlbəttə, aeroportlar təkcə iqtisadi baxımdan deyil, həm də siyasi və hərbi baxımdan da önəmlidir.

Ölkə başçısının bu günlərdə etdiyi açıqlamaya görə, bölgədə elektrik enerjisi infrasturukturu bu ilin sonuna qədər tam hazır olacaq. Eyni zamanda, yollarla bağlı problemlər və su təchizatına aid olan məsələlər də sürətlə həll edilir. Məlum olduğu kimi, bir neçə ay əvvəl pilot layihə olaraq Zəngilan rayonunun Üçüncü Ağalı kəndində "ağıllı kənd" layihəsinin icrasına başlanılıb. Bu layihədə 5 əsas komponent üzrə işlər görülür. Bunlar yaşayış, istehsal, sosisal xidmətlər, kənd təsərrüfatı, alternativ enerji sahələridir. Qeyd edim ki, bölgədə inşa ediləcək 200 evdən ibarət kəndin enerjiyə tələbatı məhz bu alternativ enerji mənbələrindən əldə olunacaq.

İşğaldan azad edilmiş bütün şəhərlər üçün baş planlar hazırlanır. Bəzi şəhərlərin baş planı artıq hazırdır və bu istiqamətdə işlərin icrasına start verilib. Sonda qeyd edim ki, azad olunmuş ərazilərin yenidən qurulmasına yalnız bu il üçün 1 milyard 300 milyon ABŞ dolları həcmində vəsait ayrılıb.

***Söhbəti qələmə aldı:***
***İmran ƏLİYEV, "Xalq qəzeti"***

Xalq qəzeti.- 2021.- 13 oktyabr.- S.3.